
"Həyatda insan hər şeyi öyrənir,
iki keyfiyyətdən başqa: sədaqət və cəsarət.
Bu keyfiyyətlər insanın qanında olur!"
ÜMUMMİLLİ LİDER
HEYDƏR ƏLİYEV

ADPU-nun 18 iyul 2024-cü il tarixli Elmi Şuranın iclasının 9 saylı protokoluna əsasən

---

Uşaqlar üçün "Balaca Tacirlərin Macəraları" dərsliyi Azərbaycan Respublikası Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin sifarişi və Paşa Holding-in dəstəyi ilə KOB-lar üçün İnsan İnkişafı Forumu və Platforması layihələri çərçivəsində Milli Təhsil Texnologiyaları Mərkəzi, Azərbaycan Dövlət Pedaqoji Universiteti, Azərbaycan Tibb Universiteti və İnkişaf Korporasiyasının birgə işçi qrupu tərəfindən hazırlanmışdır:

KOBİA
Azərbaycan Respublikasının
Kiçik və Orta Biznesin
İnkişafı Agentliyi

PAŞA Holding

AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİ

Azərbaycan Tibb Universiteti

MİLLİ TƏHSİL TEXNOLOGİYALARI MƏRKƏZİ

İNKİŞAF KORPORASİYASI

## İşçi qrupun rəhbəri

Xalidə Aydın qızı Həmidova - ADPU-nun baş müəllimi, p.ü.f.d.,
kitabın elmi redaktoru, **Sağlam Təhsil üzrə mütəxəssis**

## Pedoqoji blok - müəlliflər

Xalidə Aydın qızı Həmidova - ADPU-nun baş müəllimi, p.ü.f.d.,
Məktəbəqədər və **Sağlam Təhsil üzrə mütəxəssis**

Aidə Aydın qızı Musayeva - Metodist, Məktəbəqədər
və **Sağlam Təhsil üzrə mütəxəssis**

## Sosioloji blok

Nigar Faiq qızı Şahhüseynbəyova - Azərbaycan Universiteti,
Sosial işin təşkili kafedrasının müdiri, s.ü.f.d., MTTM-in sədri

## Tibb-gigiyenik blok

Şəhla Murad qızı Balayeva - ATU, Uşaq-Yeniyetmələrin sağlamlığı və
əmək sağlamlığı kafedrasının müdiri, t.ü.f.d., dosent

## Rəyçilər

Laləzar Kazım qızı Cəfərova - ARTİ-nin böyük elmi məsləhətçisi, dosent, p.ü.f.d., əməkdar müəllim

Nailə Tofiq qızı Hüseynova - ADPU-nun Məktəbəqədər təhsil fakültəsinin dekanı, p.ü.e.d. dosent

Zöhrə Qoca qızı İsmayılova - ATU, uşaq-yeniyetmələrin sağlamlığı və əmək sağlamlığı
kafedrasının dosenti, t.ü.f.d.

Afaq Camaləddin qızı Hüseyn - UNEC, "Biznesin idarə edilməsi" kafedrası, dosent, i.e.n.

Kifayət Aslan qızı Xudaverdiyeva - UNEC, "Biznesin idarə edilməsi" kafedrası, dosent

## Tərtibat üzrə blok

Novruz İsa oğlu Səfərəlizadə - Art direktor

Aysun Mansurlu - Səsləndirmə və texniki işlər

# Giriş - Valideynlərə tövsiyə

Müasir dövrdə məktəbəqədər təhsilin əsas məqsədi uşaqlarda yalnız bilik və bacarıqlar formalaşdırmaq deyil, həm də onların sağlam, yaradıcı, müstəqil və sosial yönümlü şəxsiyyət kimi inkişafını təmin etməkdir. Bu məqsədlə hazırlanmış "3–5 yaşlı uşaqlar üçün Sağlam Təhsil texnologiyalarına cavab verən, riyaziyyat və davranış mədəniyyəti standartlarını reallaşdıran inteqrativ dərslik" uşaqların erkən yaş dövründə əqli, emosional və mənəvi inkişafını sistemli şəkildə dəstəkləmək üçün nəzərdə tutulmuşdur.

"Balaca Tacirlərin Macəraları" dərsliyinin bu seriyası Azərbaycan Respublikası Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin sifarişi və Paşa Holding-in dəstəyi ilə KOB-lar üçün İnsan İnkişafı Forumu və Platforması layihələri çərçivəsində Milli Təhsil Texnologiyaları Mərkəzi, Azərbaycan Dövlət Pedaqoji Universiteti, Azərbaycan Tibb Universiteti və İnkişaf Korporasiyasının birgə işçi qrupu tərəfindən hazırlanmışdır. Bu dərslikdə təqdim olunan materiallar Sağlam Təhsil konsepsiyasının əsas prinsiplərinə əsaslanır. Sağlam Təhsil yanaşması uşağın fiziki, psixoloji və sosial rifahını təlim prosesinin mərkəzinə çəkir. Bu modeldə öyrənmə uşağın təbii marağı, oyun fəaliyyəti və yaradıcı düşüncə üzərində qurulur. Dərslik uşaqların hərtərəfli inkişafına şərait yaradan inteqrativ yanaşmanı əsas götürərək riyaziyyat, nitq, ətraf aləmlə tanışlıq, davranış mədəniyyəti və emosional-intellektual inkişaf sahələrini birləşdirir.

Dərsliyin əsas məqsədi — 3–5 yaşlı uşaqlarda ilkin riyazi anlayışların formalaşması ilə yanaşı, onların sosial davranış mədəniyyətinin və sağlam həyat tərzi vərdişlərinin inkişafına təkan verməkdir.

**Bu məqsədlə dərslik aşağıdakı istiqamətləri əhatə edir:**

• Riyazi təfəkkürün inkişafı: sayma, ölçmə, müqayisə, təsnifat və məkan təsəvvürlərinin oyun vasitəsilə formalaşdırılması;
• Davranış mədəniyyəti: qarşılıqlı hörmət, paylaşma, qaydalara əməl etmə və empati hissinin tərbiyəsi;
• Sağlam həyat tərzi: hərəkət, düzgün qidalanma və gigiyena vərdişlərinin oyun və fəaliyyətlərlə inteqrasiyası;
• Əqli və emosional inkişaf: uşağın öz fikrini ifadə etməsi, duyğularını tanıması və idarə etməsi üçün şəraitin yaradılması.

Dərslikdə 18 hekayə üzrə tapşırıqlar və QR kod verilmişdir. Bu QR kod vasitəsilə bütün hekayələr obrazlı şəkildə canlandırılmışdır. Bu da vəsaitin daha da interaktiv xarakterini artırı. Dərslikdəki tapşırıqlar oyun texnologiyaları, problemli situasiyalar, təcrübə və müşahidə fəaliyyəti, eləcə də sensor və kiçikmotor bacarıqları üzərində qurulmuşdur. Bu yanaşma uşaqların öyrənməyə marağını artırır, onları fəal düşünməyə və müstəqil qərar verməyə təşviq edir. Hər bir mövzu uşağın yaş səviyyəsinə və fərdi inkişaf tempinə uyğun şəkildə tərtib edilmiş, müəllim və valideynlər üçün metodik tövsiyələrlə dəstəklənmişdir.

İnteqrativ dərsliyin mühüm cəhəti ondan ibarətdir ki, burada riyaziyyat yalnız abstrakt bilik sahəsi kimi deyil, uşağın gündəlik həyatı və davranışı ilə üzvi şəkildə əlaqələndirilir. Uşaq əşyaları sayarkən, ölçərkən və ya qruplaşdırarkən həm də nizam, məsuliyyət, paylaşma və əməkdaşlıq kimi dəyərləri mənimsəyir. Bu, tədris prosesini “öyrənmək üçün yaşamaq” prinsipindən “yaşayaraq öyrənmək” prinsipinə keçirir.

Dərsliyin tətbiqi zamanı müəllim uşağın öyrənmə prosesində bələdçi, müşahidəçi və dəstəkçi rolunu oynayır. Valideynlər isə uşağın gündəlik fəaliyyətində bu bilik və bacarıqları təkrar etməklə, övladlarının sosial və emosional inkişafına töhfə verə bilərlər. Beləliklə, tədris prosesi məktəb və ailə arasında qarşılıqlı əməkdaşlığa əsaslanır.

Bu dərslik milli dəyərlər təhsilin əsasını təşkil edərək, biznes və davranış mədəniyyətinin inkişafına da təsir göstərir. Dövlətimizin bayraq dəyərlərinə uyğun forma laşdırılan “Birgə Kod” biznesdə davranış mədəniyyətini yönləndirir və ölkənin iqtisadi inkişafına xidmət edən əsas prinsipləri əks etdirir. 3–5 yaşlı uşaqlar üçün öyrənmə prosesini əyləncəli, sağlam və məqsədyönlü şəkildə təşkil etməyi hədəfləyirərək riyaziyyatla davranış mədəniyyətinin inteqrasiyası uşağın həm intellektual, həm də mənəvi dünyasının harmonik inkişafına şərait yaradır. Əminik ki, bu dərslik tərbiyəçi-müəllim və valideynlər üçün etibarlı və praktik bir tədris vasitəsinə çevriləcək, uşaqlarda sağlam düşüncə, düzgün davranış və ömürboyu öyrənmə motivasiyasını formalaşdıracaq.

## İnsan inkişafında multidisiplinar yanaşmanın əhəmiyyəti və zəruriliyi

İnsan inkişafındakı kompleks problemlərin həllində multidisiplinar yanaşmaya ehtiyac var. Çünki insan inkişafı çoxşaxəli, dinamik prosesdir və müxtəlif sahələrdən təsirlənir. Məsələn, **psixologiya və fiziologiya** birbaşa insanın zehni və fiziki vəziyyətini izləyir, **pedaqogika** isə təhsil və öyrənmə vasitəsilə insanın inkişafına kömək edir. **Sosiologiya**, cəmiyyətdəki davranışları və sosial əlaqələri anlamağa imkan verir, insan təcrübəsinə təsir edən sosial rollar və gözləntiləri araşdırır. **Gender** yanaşması "Bərabərlik eynilik deyil" prinsipinə əsaslanır və cinslər arasındakı bioloji fərqləri qəbul etməklə yanaşı, qızların və oğlanların bərabər imkanlarla inkişafını təmin etmək üçün onların spesifik ehtiyaclarını nəzərə alır. **Tarix və din** sahəsindəki mütəxəssislər, keçmişin və mədəniyyətin insan davranışlarına, dəyərlərinə və milli kimliyin formalaşmasına təsirini araşdırmaqda mühüm rol oynayırlar. **İnsan resursları** mütəxəssisləri isə iş yerində insan münasibətlərini və təşkilati dinamikaları idarə etməklə yanaşı, əmək mühitinin keyfiyyətini yüksəltməyə çalışırlar.







**Milli təhlükəsizlik** sahəsi isə siyasi, sosial, mənəvi, iqtisadi, hərbi və ekoloji təhlükəsizliyin təmin edilməsinə yönəlib, çünki insan inkişafı və milli təhlükəsizlik bir-birinə sıx bağlıdır və birinin vəziyyəti digərinə birbaşa təsir göstərir.




Belə bir yanaşma problemlərin həlli üçün müxtəlif sahələrin təqdim etdiyi perspektivlər arasında balans qurmağa imkan verir və bu da daha hərtərəfli və dayanıqlı həll yollarının tapılmasını təmin edir. Bu yanaşma problemləri təkcə bir aspektdən deyil, daha geniş və dərin bir prizmadan qiymətləndirərək, inkişafın hərtərəfli dəstəklənməsini mümkün edir.


***Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektoru, professor Cəfər Cəfərov***

# #BirgəKod

Mütərəqqi * Güclü * Mərd * Təşkilatlanan * Yaradıcı * Müdrik * Haqbilən * Ləyaqətli

## 6

- Fədakar
- Cəsarətli — C25 Bravery
- Prinsipial — IBP Principled
- Dürüst — C25 İntegrity
- Mübariz
- Yaxşılıqlara dəvət edən və pisliklərdən çəkindirən

## 6

- Fiziki mədəniyyətə malik-fiziki cəhətdən sağlam — IBS 36 Gross motor skills, IBS 36 Fine motor Skills
- Emosional zəkalı — D10 Resilience, stress tolerance and flexibility
- İradəli — C25 Persistence, C25 Self-Regulation
- Fiziki sağlamlığını və tətbiqi bacarıqlarını inkişaf etdirən — İBS 36 Healthy Lifestyle
- Özünə əmin — İBA12 Confidence
- Nikbin — C25 Hope, C25 Humor

## 10

- Məqsədyönlü — TMA Result Orientedness
- Müstəqil — TMA Independence
- Tədbirli — IBS36 Safety
- Məsuliyyətli — TMA Accountability
- Ünsiyyətcil — TMA Negotiating
- İntizamlı — TMA Discipline, TMA Planning and Organizing
- Təşəbbüskar — TMA İnitiative
- Əməkdaşlıq etməyi bacaran — TMA Cooperation
- Lider — D10 Leadership and social influence
- Çalışqan (əməksevər, zəhmətkeş) — C25 Vitality

## 5

- Özünü inkişaf etdirən — TMA Self Development
- Geniş maraq dairəsi olan — C25 Curiosity, D10 Technology use, monitoring and control, D10 Technology design and programming
- Çevik uyğunlaşan — TMA Adaptability
- Tələbyönümlü — TMA Customer Orientation
- Sosial mədəniyyətə malik — TMA Social Awareness

## 8

- Tədqiqatçı — D10 Active learning and learning strategies
- Açıq fikirli — C25 Open mindedness
- Nəzəri təfəkkürlü — D10 Reasoning, problem-solving and ideation
- Praktik təfəkkürlü — IBS 36 Application
- Problemləri kompleks həll edən — D10 Complex problem solving
- Yaradıcı təfəkkürlü — D10 Creativity, originality and initiative
- Tənqidi təfəkkürlü — D10 Critical thinking and analysis
- Məntiqi təfəkkürlü — D10 Analytical thinking and innovation

## 11

- Etibarlı (Güvənli, Sadiq)
- Estetik mədəniyyətə malik
- Ədalətli (Adil) — C25 Fairness
- Xeyirxah
- Mərhəmətli — C25 Kindness, C25 Forgiveness and Mercy
- Nəcib
- Vicdanlı
- Təvazökar — C25 Humility and Modesty
- Səxavətli
- Qayğıkeş — C25 Love
- Nəzakətli (xoşrəftar - etik qaydalara riayət edən) — IBS36 Code of Behaivour

## 6

- Mötədil — IBP Balanced
- Dəyər verən və faydalanan — İBA12 Appreciation
- Sosial institutları (ailə, təşkilat) anlayan — TMA Organization sensitivity, TMA Political sensitivity
- Uzaqgörən — C25 Prudence, C25 Perspective
- Özünü qiymətləndirən — C25 Assesment and Application
- Münaqişələri həll edən — TMA Conflict Management

## 18

- Rəhbərin haqqını təmin edən — K18 Sadiqlik-loyallıq
- Vətənin haqqını təmin edən — C25 Citizenship
- Vətənə xidmət edənlərin haqqını bilən və təmin edən — K18 Sadiqlik-loyallıq
- Hüquqi mədəniyyətə malik
- Valideynin haqqını təmin edən
- Həyat yoldaşının haqqını təmin edən
- Övladın haqqını təmin edən
- Qohumların haqqını təmin edən
- Qonşuların haqqını təmin edən
- Multikultural mədəniyyətinə loyal — İBA 12 Tolerance
- Ekoloji mədəniyyətə malik
- Yaradanın haqqını təmin edən — C25 Spirtuality, C25 Gratitude, C25 Appreciation of beauty and excellence
- Azərbaycan dəyərlərinə malik olanların haqqını təmin edən
- Tabeçiliyində olanların haqqını təmin edən
- Ehtiyaclıların haqqını təmin edən
- Alimlərin, müəllimlərin və elmin haqqını təmin edən
- Böyüklərin və kiçiklərin haqqını təmin edən
- Qonağın haqqını təmin edən

**Mədəniyyətimiz**
Bayrağımızın
Rənglərindədir

**Bayrağımızı**
Əməllərdə
Yaşadaq!

# Mündəricat


| | | | |
|---|---|---|---|
| Dərs 1 | Giriş - Valideynlərə tövsiyə | | |
| Dərs 2 | Ekoloji mədəniyyətə malik | Gülən Təbiət | 10-11 |
| Dərs 3 | Mərhəmətli | Balaca qəhrəmanlar | 12-13 |
| Dərs 4 | Qayğıkeş | Ağlayan Ağac | 14-15 |
| Dərs 5 | Səxavətli | İsti əlcək | 16-17 |
| Dərs 6 | Nəzakətli | Kukla Teatrında | 18-19 |
| Dərs 7 | Məsuliyyətli | Gilas Çəyirdəyi | 20-21 |
| Dərs 8 | Alimlərin, müəllimlərin və elmin haqqını təmin edən | Sarı radio | 22-23 |
| Dərs 9 | Sosial institutları anlayan | Mağazada | 24-25 |
| Dərs 12 | Özünü qiymətləndirən | Çiçək toxumu | 26-27 |

# Mündəricat


| | | |
|---|---|---|
| Dərs 13 | Münaqişələri həll edən Bağçadakı Oyun | 28-29 |
| Dərs 14 | Vətənin haqqını təmin edən Dalğalanan bayraq | 30-31 |
| Dərs 15 | Multikultural mədəniyyətinə loyal Sehrli Xalça | 32-33 |
| Dərs 16 | Etibarlı Etibarlı dostlar | 34-35 |
| Dərs 17 | Məntiqi təfəkkürlü Motorlu Gəmi | 36-37 |
| Dərs 18 | Məsuliyyətli Metroda hadisə | 38-39 |
| Dərs 16 | Estetik mədəniyyətə malik Çəhrayı otaq | 40-41 |
| Dərs 17 | Mərhəmətli Pul qutusu | 42-43 |
| Dərs 18 | Tədqiqatçı Araşdırma evi | 44-45 |

Hekayəni oxut

# Gülən Təbiət

*Ekoloji mədəniyyətə malik*

Axşam güclü yağış yağırdı. Zeynəb yatağında uzanmışdı. Ocaq yandığından evləridə isti idi. Zeynəbin pişiyi yatağın kənarında quyruğu ilə oynayırdı.Nənə Zeynəbə corab toxuyur və nağıl danışırdı.

Səhər balaca Zeynəb pəncərədən baxdı və dedi:
— Anacan, yağış yağmır! Günəş mənə gülümsəyir! Mən parka getmək istəyirəm!

Anası ona çanta hazırladı:
— Qızım, əlcək və torba götür.Zibilləri torbaya yığarsan. Təbiəti təmiz saxlamaq bizim borcumuzdur!

Zeynəb dostları Aydan və Ayanla parka getdilər. Quşlar "cik-cik"edir, dovşanlar "tıp-tıp" tullanırdı. Ancaq parkda çoxlu zibil vardı — kağızlar, butulkalar, qutular...

Zeynəb dedi:
— Təbiət də bizim evimizdir! Ağaclar, quşlar, kəpənəklər təmizliyi sevir!

O, əlcəyini geyindi, torbasını çıxardı. Boş butulkaları, kağızları yığmağa başladı.

Aydanla, Ayan əvvəl təəccübləndi, sonra dostuna kömək etdilər. Uşaqlar təmizlik edərkən şənlənir, mahnı oxuyurdular. Dostlar birlikdə balaca parkı təmizlədilər.





**Sən də ətrafını təmiz saxla gələcəyini qoru**



# Təbiəti qorumaq niyə vacibdir?

Birdən Aydan uşaqları səslədi.
-Ay uşaqlar qolbağım itib! Anam məni danlayacaq!

Hamı qolbağı axtarmağa başladı. Birdən sincab ağzında qolbaq ağacdan düşdü.Qolbağı ağzından Aydanın əlinə saldı.Sincab sanki bu hərəkəti ilə uşaqlara təşəkkür edirdi. Axı uşaqlar heyvanların evini təmiz etmişdilər.

Aydan sevindi.

Parkın nəzarətçisi Əhməd baba gəlib və dedi:
— Aferin sizə uşaqlar! Siz təbiətin dostusunuz!

Uşaqlar ağac altında oturdular, su içdilər və quşların səsini dinlədilər. Dostlar balaca boş butulkaları, kiçik taxta qırıntılarını əlavə çantaya yığmışdılar. Çünki, onlar atılmış əşyalardan əl işləri düzəldirdilər. Qızların arzusu düzəltdiyi əl işlərindən sərgi təşkil etmək idi. Valideynləri və müəllimələri hər zaman sərgi təşkil etməkdə uşaqlara köməklik edirdilər. Uşaqlar buradan qazandığı qazancı təhsil ala bilməyən qızlara xərcləməyi düşünürdülər.

Zeynəb dərindən nəfəs alıb dedi:
— Təmiz təbiət — gülən təbiətdir!

Tapşırıqlar

Hekayəni oxut

# Balaca qəhrəmanlar

*Mərhəmətli*

Bir var idi, bir yox idi, Günəşli qəsəbəsində Gülçin adlı mərhəmətli bir qız yaşayırdı. Gülçin hər səhər çiçəklərə su verər, pişiklərə süd qoyar, quşlara dən səpərdi.

Bir gün Gülçin nənəsi ilə bazara meyvə almağa gedirdi. Birdən küçədə ağlayan bir səs eşitdi.

— İt hürmür... O elə bil... ağlayır, — deyə Gülçin dilləndi.
Binanın küncündə yarımçıq karton qutuda balaca bir yaralı it vardı. Ayağına nəsə batmışdı, burnu da palçığa bulaşmışdı. İt yamanca üşüyürdü.

Gülçin  dərhal nənəsinə baxdı:
— Nənə, o acdır... və canı ağrayır. Gəl itə kömək edək...

Nənəsi də razı oldu:
— Mərhəmətli qızım,  görək nə edə bilərik.
İtin ayağında tikan vardı və o, çox pis yorulmuşdu. Amma yaxınlıqda baytar yox idi...Gülçin  tez evə getdi. Qonşuluqda yaşan dostları Arzu və Nərgizi də köməyə çağırdı.

Arzu evdən köhnə yun şal gətirdi,iti  ona bükdü. Dostlar onu evə apardılar. Gülçin əlini sabunla yudu və nənəsi ilə birlikdə balaca tikanı çıxardılar. Uşaqlar itə ad da qoydular:






**Kiçik bir yardım bir canlının həyatını dəyişə bilər**



**Bəs sən küçədə yaralı heyvan görsən, nə edərsən?**

— Səni Toppuş çağıracağıq! Çünki həm balacasan, həm də yumru-yumrusan! Nərgiz ona yemək verdi. İt quyruğunu yelləyərək sevinclə yedi.

Həmin gün Toppuş artıq hoppana-hoppana qaçırdı! Qonşular da onun halına çox sevinmişdi.

Dostlar hər gün iti sığallayıb, oxşadırdılar. Uşaqlar o qədər mərhəmətli idilər ki,onlar küçədə evsiz yaşayan heyvanların halına çox pis olmuşdular. Uşaqlar böyük bacı,qardaşlarının köməyi ilə küçə heyvanları üçün kiçik bir yemək və su guşəsi düzəltdilər. Oraya hər gün yemək və su qoyur, heyvanlara qayğı göstərirdilər. Onlar parklarda və həyətlərdə rəngli afişalar hazırlayıb yapışdırırdılar. Afişalarda belə yazırdılar:

“Küçə heyvanlarına yardım et! Onlar da bizim dostlarımızdır. Bir qab su, bir ovuc yemək – bir canlının həyatını dəyişə bilər!”

Hətta məktəbdə müəllimlərinin icazəsi ilə balaca bir kassa qoymuşdular. Ora istəyən az da olsa yardım edə bilərdi.

Nənə uşaqların  başına sığal çəkib dedi:
-Mərhəmət balacaya, böyüyə baxmır. Siz balaca qəhrəmanlarsınız!

Tapşırıqlar

Hekayəni oxut

# Ağlayan Ağac

*Qayğıkeş*

Balaca Musa həyətə çıxanda gördü ki, Səkinə nənənin səbəti  yerə düşüb. Onun içindəki almalar torpağın üstünə yayılıb.

Musa  tez qaçıb dedi:
— Səkinə nənə, mən sizə kömək edərəm!O, meyvələri bir-bir səbətə yığdı.

Səkinə nənə gülümsədi:
— Sağ ol, oğlum. Sən çox mehriban uşaqsan!
—Al bu almanı sənin olsun. Bundan kim bir dilim  yesə, hər kəsə yaxşılıq edər.
Bu sözlər Musanın lap xoşuna gəlmişdi.

O, dostları Ayşə və Uğuru görüb sevincək dedi:
— Mən nənəyə kömək etdim! O mənə  gözəl sözlər dedi! Ayşə gülümsədi, amma Uğur çiyinlərini çəkib dedi:
— Kiməsə kömək etmək, oyun deyil. Məncə bu çox darıxdırıcı işdir...

Bir az sonra uşaqlar ağacın altında oynamağa başladılar.

Uğur ağaca çıxdı və bir budağını qopardı. Budaq biraz qopdu və ordan bir neçə damcı su axdı.

Ayşə həyəcanla dedi:
— Uğur, ağac ağlayır! O budaq hələ körpə idi!







Əgər sən də belə bir bağ qursaydın, qazancı nəyə xərcləyərdin?

Musa dedi:
— Budaq anasından ayrıldığı üçün ağlayır. Uğur bu hərəkətindən peşman oldu. Bir daha belə hərəkətlər etməyəcəyinə söz verdi. Nənənin verdiyi alma Musanın yadına düşdü. O, almanı cibindən çıxardıb, hərəsinə bir dilim verdi. Uşaqlar almanı iştahla yedilər. Uşaqlar bir yerdə yaylıqla budağı bağladılar.

Uğur dedi:
— Artıq dəcəllik etməyəcəyəm. Mən də mehriban olacağam!

Sanki bir dilim alma Uğurun xasiyyətini dəyişmişdi. O, dostlarına belə bir fikir dedi:
-Uşaqlar gəlin bu bağda çoxlu meyvə ağacları əkək. Ağaclar böyüsün,bura bizim parkımız olsun. İnsanlar gəlib burada istirahət edib, əylənsinlər. Bu saldığımız park bizim gələcəyimizi gözəl etsin. Dostlar bu gün ora babalarının köməkliyi ilə 3 ağac əkmişdilər.

Onlar ağacları qucaqladılar və dedilər:
- Biz səni sevirik!

Tapşırıqlar

Hekayəni oxut

# İsti əlcək

*Səxavətli*

Bir var imiş, bir yox imiş. Dağların başında Şuşa adlı qarlı bir kənd vardı. Ora hər gün qar yağardı. Uşaqlar kənddə hər gün qarla oynayıb əylənərdilər.

Cavad bugün yaman darıxırdı. O, anasından icazə alıb həyətə düşdü. Oynayarkən dostları Onur və Nicatıda çağırdı. Uşaqlar qardan adam düzəldir,qar topu oynayırdılar. Bir az keçmişdi ki, Onur əllərini ovuşdurmağa başladı.
— Ufff... Əllərim dondu. Əlcəklərimi evdə unutmuşam, – dedi.

Cavad dərhal öz əlcəklərini çıxarıb birini Onura uzatdı:
— Al, birini sən geyin, birini mən. Onda ikimiz də donmadan oynaya bilərik!

Onur gülümsədi və əlcəyi geyindi. Dostlar qarda oynamağı çox sevirdilər.
Uşaqlar xizəklə yarış keçirirdilər.

Qonşu uşaqlardan biri kənarda kədərli dayanmışdı.
— Niyə oynamırsan Murad ? – deyə Cavad soruşdu.
— Mənim xizəyim yoxdur, mən sizinlə yarışa bilmirəm...

Cavad dərhal dedi:
— Gəl, mənim xizəyimlə sürüş. Mən səni itələyərəm!






**Paylaşmaq həm dostluğu, həm də sevgini böyüdür**



Əgər sən xizək dükanın olsa, onu necə bəzəyərdin?

Murad sevincdən atıldı, Cavad isə onu xizəyə oturtdu və birlikdə sürüşdülər. Murad sürüşərkən xizəyin altı daşa dəyib taxtası qırıldı. Murad xizək sındığına görə kədərlənmişdi.

Cavad Muradın çiyninə əlini qoyub dedi:
— Eybi yox! – atam yenidən düzəldər. Bu dəfə lap böyüyünü düzəltdirərəm. Uşaqlar gülüb-əyləndilər. Uşaqlara qərara gəldilər ki, atalarına böyük xizək düzəltdirsinlər. Dağa sürüşmək üçün gələn qonaqlara satsınlar.

Uşaqlar bu fikri valideynlərinə nağıl etdilər. Bu çox maraqlı idea idi. Uşaqlar öz arzularını artıq gerçəkləşdirmişdilər.

Şuşa dağlarında qar yağmağa davam etsədə, nağılımız burada bitmişdi.

Tapşırıqlar

Hekayəni oxut

# Kukla Teatrında

*Nəzakətli*

Bir gözəl bazar günü səhəri, Mədinə, Gülər və Lalə adlı üç yaxın dost anaları və ataları ilə birlikdə şəhərdəki böyük kukla teatrına getdilər. Hamı çox həyəcanlı idi, çünki bu gün "Sehrli Kuklalar" tamaşası göstəriləcəkdi. Teatrın qarşısında növbə vardı. Bir oğlan növbəni pozmaq istədi.

Mədinə mehribanlıqla dedi:
— Zəhmət olmasa, növbədə dayanın! Oğlan başını aşağı saldı və növbəyə geri qayıtdı. Uşaqlar sakitcə zalda yerlərinə keçdilər. Bir uşaq ağlayırdı. Onun bileti harasa düşmüşdü.

Gülər  dedi:
— Mən bileti yerdə görmüşdüm!
Mədinə və Lalə kresloların altına baxdılar və bileti tapdılar. Onu oğlana verdilər. Oğlan gülümsədi və təşəkkür etdi.

Tamaşa başladı. Səhnədə keçi,ayı,tülkü kuklaları elə hərəkət edirdilər ki, elə bil insan danışır.Bu kuklalar çox maraqlı idi. Amma birdən işıqlar söndü. Səhnədə kuklalar görünmədi.

Mədinə  atasına dedi:
— Ata, fənərin var? Bəlkə kuklalara kömək edək?





**Nəzakət sənə yeni dostlar qazandırar**



## Dostlarınla səhnəcik hazırla

Uşaqlar fənəri açdılar. Kuklalar sanki , yenidən canlandı. Başladılar oynamağa. Işıqlar yenidən yandı, tamaşa davam etdi. Hamı kuklaları alqışladı!

Teatrın rəhbəri uşaqlara təşəkkür edib , dedi:
— Siz çox nəzakətli və ağıllı uşaqlarsınız!
Oranın rəhbəri uşaqları tamaşada rol almaq üçün teatra dəvət etdi. Uşaqlar dəvəti sevincə qarşıladılar. O gündən uşaqları hamı tanıyırdı. Onlar müxtəlif rollarda iştirak etmək üçün çoxlu dəvət alırdılar. Onlar əldə etdiyi gəliri öz gələcək təhsilləri üçün xərcləyəklərini planlanlamışdılar.

Nağıl dostlarım sizədə gələcək həyatınızda uğurlar arzu edirəm.

Tapşırıqlar

Hekayəni oxut

# Gilas Çəyirdəyi

*Məsuliyyətli*

Biri vardı, biri yoxdu Zəhra adlı gözəl bir qız vardı.Zəhra hər gün bağlarındakı gilas ağacına baxar, onunla söhbət edərdi.
—Ay gilas yanaqların nə vaxt qızaracaq?

Zəhranın Ayla və Nihat adlı balaca dostları vardı.Onlar hər gün birlikdə oynayar, yetişmiş meyvələrdən yeyərdilər.
Bir gün uşaqlar gördülər ki, gilaslar qıpqırmızı qızarıb. Zəhra ağacdan bir dənə gilas dərdi.

—Ay gilas mən ki, səni çoxdan gözləyirdim-deyib onu ağzına atdı.
Birdən Zəhra dayandı...

—Ayyy! Gilasın içində çəyirdək varmış! Udacaqdım az qala!

Nihat anasının ona öyrətdiyini Zəhraya dedi:
— Zəhra, gilası çeynəməzdən əvvəl içini yoxlamalısan! Çəyirdək boğazında qala bilər!

Ayla bir qab gətirdi. Uşaqlar gilasları iki yerə bölüb, çəyirdəkləri çıxardıb,sonra rahatca yedilər.

Ayla gilas çəyirdəklərini yerə atmaq istədi, amma Zəhra qoymadı.
— Dayan, yerə atma! Quşlar çəyirdəyi udsa, onlara da zərər verə bilər!





Yediyin meyvənin çəyirdəyini ək




Uşaqlar çəyirdəkləri bir yerə topladılar. Nihat dedi:
— Çəyirdəkləri torpağa əkək. Bəlkə yeni gilas ağacı böyüyər.

Onlar torpaqda balaca bir çuxur qazdılar, çəyirdəkləri basdırdılar və su tökdülər.

Zəhranın anası uzaqdan baxıb gülümsədi:
— Aferin sizə, uşaqlar! Siz həm məsuliyyətli davranmağı, həm də təbiəti qorumağı bilirsiniz!

Əziz uşaqlar nağılımız burda bitsədə, gilas ağacları böyüyüb çoxlu bar verdi. Bu ağacların gilasları o qədər böyük idi ki, bir dənəsi bir kilo gəlirdi. Ona görədə, uşaqların bağından gilas almağa gələn tacirlər, növbə gözləyərdilər.

Tapşırıqlar

Hekayəni oxut

# Sarı radio

*Alimlərin, müəllimlərin və elmin haqqını təmin edən*

Rəşad dostları Əli və Turqut ilə qonaq otağında oynayırdılar. Onun Tumurcuq adlı iti var idi. İt bir kənardan uzanıb uşaqları izləyirdi. Birdən Rəşadın gözü stolun üstündəki sarı radioya sataşdı. Anası həmişə mətbəxdə işləyərkən radioda mahnıya qulaq asardı.

Rəşad biraz fikirləşib dedi:
— Görəsən bu necə işləyir?
O, balaca alətlərini gətirib, dostları ilə birlikdə radionu sökməyə başladı.

Tumurcuq isə arada “hav-hav!” hürür, sanki onlara radionu sökmək olmaz deyirdi.

Birdən, radionun qapağı yerə düşdü , naqilləri göründü. Dostlar təəccüblə baxdılar:
— Vayyy! Burda çoxlu hissələr var! Anamın radiosu qırıldı!

Takkıltı səsini eşidən ana mətbəxdən gəldi. Radionun hissələrini görüb təəccübləndi.
— Ay Rəşad bu radionu kim söküb? Bu ki, mənim ən sevimli əşyamdır? Rəşad və dostları radionu sındırdıqlarına görə məyus olmuşdular.Lakin onlar düzünü deməli olduğunu bilirdilər.
Rəşad dedi:
— Ana, biz sadəcə onun necə işlədiyini öyrənmək istəyirdik. Onu düzəldə bilərik?







Sevdiyin oyuncağı dostlarına hədiyyə et

Ana əvvəl bir az kədərləndi, sonra dedi:
— Əgər həqiqətən öyrənmək istəyirsinizsə, gəlin birlikdə düzəldək.

Ana və dostlar birgə radionu yığmağa başladılar. Amma radionun bir hissəciyi itmişdi!

Tumurcuq birdən “ham- ham!” hürüb divanın altına girdi. Və...hissəcik oradaydı.
— Aferin sənə, Tumurcuq ! — deyə Rəşad onu sığalladı.
Ana hissəciyi bərkidib radionu düzəltdi. Dostlar radionu açdılar və musiqi çaldı:
“Cib –cib cücələrim”

Hamı sevindi. Ana uşaqları qucaqlayıb dedi:
— Uşaqlar, siz çox ağıllısınız. Lakin hər əşyanı sökmək olmaz.!

Uşaqlar bağçada müəllimənin icazəsi ilə "Radionun Sirri" adlı balaca məşğələ təşkil etdilər. Stolun üstünə köhnə bir radio, naqillər, düymələr qoydular. Dostları ilə birlikdə bunu izah etdilər:
— Bu hissə səsin gəlməsinə kömək edir. Bu isə elektrik cərəyanını ötürür.

Digər uşaqlar maraqla baxdılar və suallar verdilər. Bağçadakı bəzi uşaqlar evdəki xarab əşyaları təmir etməyə maraq göstərdi.
Müəllimə onlara təşəkkür etdi və dedi:
— Bu kiçik təqdimatınıza görə sizə ulduzlu nişanı verirəm. Siz gələcəyin alimləri olacaqsınız.

Tapşırıqlar

Hekayəni oxut

# Mağazada

*Sosial institutları anlayan*

Narinin hər gün ilk işi balıqlarını yemləmək idi. Narin qabda yemin bitdiyini görüb, çox kədərlənmişdi. Görəsən, balıqlarıma nəsə olar? Onlar acdır axı–deyə Narin fikirləşdi. Anası Narini mağazaya aparacağına, balıq yemi alacağına söz verdi .

Narin  çox sevindi. Tez paltarını geyindi, çantasını götürdü və anasının əlinən tutub mağazaya yollandılar.
Mağazaya çatanda, Narin sevinclə içəri girdi. O, ətrafa maraqla baxdı: rəflərdə meyvələr, sular, oyuncaqlar və səliqəli düzülmüş əşyalar vardı. Narin anasından soruşdu:
— Ana, başqalarıda bu əşyalardan ala bilər?

Anası gülümsədi:
— Bəli, qızım. Bu mağazaya hamı gəlib alış-veriş edə bilər. Ona görə biz qaydalara əməl etməliyik.

Narin anasına dedi:
— Ana, biz yalnız ehtiyyacımız olan əşyaları almalıyıq. Ona görədə əvvəlcə  nə alacağımıza baxaq.

Ana Narinin bu sözlərindən gülümsündü və onu qucaqladı. Narinin dostları Aysu və Zəhrada mağazada idi. Onlar bir-birini görüb sevindilər. Uşaqlar rəflərin arasında əşyalara baxırdılar.





**Məsuliyyətli davranmaq böyük işlərin başlanğıcıdır**



Əgər sən də öz mağazanı açsaydın, orada nələr satardın?

Narin bir alma götürmək istədi. Amma eyni anda Aysuda həmin almaya uzandı. Narin bir anlıq fikirləşdi və dedi:
— Sən al, Aysu. Mən başqa almanı götürərəm.

Aysu sevinib dedi:
— Təşəkkür edirəm, Narin! Zəhra rəflərin yanından keçərkən anidən su butulkaları yerə düşdü. Dostlar bu işə görə məyus oldular. Mağaza işçiləri gəlib onlara acıqlana bilərdi.

Narin isə özünü itirmədən butulkaları rəfə səliqə ilə düzdü. Narin anası ilə balıqları üçün yemi alıb evə yollandılar. Narin balıqları yemləyərkən dedi:
-Qızıl balıq bilirsən, mən bu gün mağazada özümü çox ağıllı apardım. Qaydalı heç pozmadım. Ona görədə anam məni hər gün mağazaya aparacaq. Anası Narinin sözlərinə gülüb onu qucaqladı.

Hekayəni oxut

# Çiçək toxumu

*Özünü qiymətləndirən*

Bir var imiş, bir yox imiş. Balaca uzun saçlı, qara gözlü Nigar adlı bir qız var idi. O, hər səhər güzgüyə baxıb deyərmiş:
— Mən ağıllıyam! Mən gözələm! Mən bacarıqlıyam!

Günlərin bir günü Nigar dostları, Aytac və Mələklə gül toxumu əkmək qərarına gəldilər. Nənələri qızlara bir- bir toxum verdi.
Hər kəs torpaq qazdı, su tökdü, toxumu basdırdı. Nigar toxumunu əkərkən, onu sığallayıb dedi:
-Sən çox gözəl toxumsan, ən gözəl gülü sən aç. Uşaqlar Nigarın bu sözlərinə gülüşdülər. Nigar biraz dostlarından incidi. Lakin məyus olmadı. O, inanırdı ki, ən gözəl gül Nərgizin əkdiyi toxumdan olacaq. Amma günlər keçdi, aylar dolaşdı çiçək açmadı ki, açmadı. Dostları Aytac və Mələyin çiçəkləri çoxdan uzanmışdı.

Dostları Nigara dedi:
— Sənin çiçəyin zəifdir!

Nigar bir az kədərləndi.
Amma sonra öz-özünə dedi:
— Mənim çiçəyim ən gözəli olacaq!

O, hər gün çiçəyinə su verdi, ona mahnı oxudu.







# Dostlarınla baxçada gül ək

Bir gün səhər Nigar nə görsə yaxşıdı, onun çiçəyi açıb.

Həmdə çox gözəl və parlaq bir çiçək. O, cəld nənəsini və dostlarını çağırdı.

Nənə Nigarın başına sığal çəkib  dedi:
— Nigar, sən çox səbirli və ağıllısan.
Sənin çiçəyin özün kimi gözəldir!

Nigar güldü və dedi:
— Nənə mən bacarıqlı olsamda, birazda tez küsüb, inciyənəm!
Dostları onun sözünə güldülər və əylənməyə davam etdilər. Nigar qərara gəldilər ki, böyüyəndə dostları ilə birlikdə bağlarında gül becərəcəklər. O, güllərin gözəlliyi hər kəsi heyran qoyacaq. Dünyanın hər yerindən gülləri almaq üçün bağa gələcəklər.

Əziz dostlar göydən üç qızılgül düşdü. Biri sənin, biri nağıla qulaq asanın, biridə güzgüdən baxanın.

Tapşırıqlar

Hekayəni oxut

# Bağçadakı Oyun

*Münaqişələri həll edən*

Günəşli bir səhər idi. Uşaqlar bağçaya sevinclə gəlirdilər. Çünki bağçada oyun günü idi. Balaca Dəniz və iki yaxın dostu Ariflə, Zəhra hər zaman birlikdə oynayırdılar. Müəllimə onları zala apardı. Zalda çoxlu oyuncaqlar vardı. Uşaqlar çox sevinmişdilər. Dəniz, böyük rəngli kublardan qəsr tikmək istədi. Arif də ona kömək etməyə başladı. Zəhra isə yaxınlıqdakı uşaq mətbəxində yemək bişirmə oyunu oynayırdı. Amma bir az sonra başqa iki uşaq – Murad və İlkin  də zala gəldi.

Dənizin tikdiyi qəsri dağıdıb kublarla öz oyunlarını qurmağa başladılar. Dənizlə, Arifi isə əli ilə itələdilər. Dostlar bir–birinə baxdılar.

Dəniz bir anlıq hirsləndi amma heçnə demədi.

O, yaxınlaşıb sakit səslə dedi:
— Murad,  biz bu kublarla bir qəsr tikirdik. İstəsəniz, siz də bizə qoşula bilərsiniz.

Arif başı ilə onun sözünü təsdiqlədi:
—  Əgər siz də bizə kömək etsəniz, qəsrimiz ikiqat gözəl olacaq!

Murad və İlkin əvvəlcə bir az tərəddüd etdilər. Amma Dənizin və dostlarının mehriban və sakit danışığını eşidib, gülümsədilər.



**Davranış qaydalarını sadala**



**Sevdiyin oyuncağı dostuna hədiyyə et**

— Yaxşı, gəlin birlikdə tikək — dedilər. Beləliklə, uşaqlar birlikdə böyük bir qəsr qurdular.

Tikinti bitəndə uşaqlar çox sevinirdilər. Qəsrin içində uşaqlar böyük mağaza düzətdilər. Orada müxtəlif oyuncaqdan əşyalar qoyub satışa çıxartdılar. Bağçanın digər uşaqları  bu qəsri görüb lap məəttəl qalmışdılar. Bu gün uşaqlar üçün çox gözəl gün idi.

Müəllimə  gülümsəyib dedi:
—  Afərin uşaqlar sülh içində oynamaq, ən gözəl oyundur!

Tapşırıqlar

Hekayəni oxut

# Dalğalanan bayraq

*Vətənin haqqını təmin edən*

Bir var idi, bir yox idi, dağlar qoynunda Qartal yuvası adlı gözəl bir kənd var idi. Bu kənddə balaca, amma ürəyi böyük bir oğlan - Məhəmməd yaşayırdı.

Məhəmmədin iki dostu var idi: Ömər və Musa. Onlar hər gün birlikdə oynayardılar. Uca zirvələrdən uçub gedən qartalları seyr edərdilər. Axşamlar nənə-babalarından qəhrəmanlıq hekayələri dinləyərdilər.
Bir gün kəndin yaxınlığında səslər eşidildi. Hamı narahat oldu. Məhəmməd atasından soruşdu:

— Ata, niyə hamı kədərlidir? Atası dedi:
— Oğlum, vətənimizi qorumaq vaxtıdır!

Məhəmməd və dostları düşündülər:
— Biz də vətən üçün bir iş görək!Onların kəndinə çoxlu turistlər gəlirdi.

Dostlar evlərinin qarşısında balaca sərgi qurdular. Sərgidə milli papaqlar, kəlağayı,əl işləri və. s var idi. Uşaqlar sərgidə satmaq üçün nənələrinin bişirdiyi milli yeməklərimizdən paxlava,aş, dovğadan qoymuşdular. Bu işdə onlara Əhməd baba köməklik edirdi.

Turistlər bu sərgini çox bəyəndilər. Hətta turistlər sərgidə uşaqlarla birlikdə şəkildə çəkdirmişdilər.







## Azərbaycan bayrağını düzəlt

Bir gün  xəbər gəldi: Düşmən şəhərə yaxınlaşırdı.

Bunu eşidən kəndlilər  evlərinə qaçdılar. Musa cəsarətlə əsgərə dedi:
— Bayrağımızı daşların arxasında  gizlətdik. Biz onu qorumalıyıq!

Əsgər dedi:
— Aferin sənə! Siz balacasınız, amma igidsiniz! Bayrağı biz qoruyarıq!

Müharibə artıq bitmişdi. Bayraq yenə kəndin üstündə dalğalandı. Uşaqlar sevinclə qışqırdılar:
— Yaşasın bayrağımız! Yaşasın vətənimiz! Nağılımız  burada  bitsədə, bayrağımız isə həmişə dalğalanırdı...

Tapşırıqlar

Hekayəni oxut

# Sehrli Xalça

*Multikultural mədəniyyətinə loyal*

Bir var imiş, bir yox imiş, Barışkənd adlı gözəl bir kənd var imiş. Bu kənddə fərqli ölkələrdən gəlmiş insanlar bir yerdə yaşayarmış. Hamı bir-birini sevər, hörmət edərmiş. Kəndin bağçasında türk, rus, ərəb, gürcü dillərində mahnılar oxunarmış. Bu kənddə üç dost var imiş:

Mehriban - türk, Yusif - ərəb Elisa – Azərbaycanlı idi.

Bir gün dostlar oyun oynayarkən köhnə bir sandıq tapdılar.Sandığın içindən tozlu bir xalça çıxdı. Dostlar xalçanın üstünə oturmaq istiyirdilər ki, ... vızzzz!

Xalça uçmağa başladı!
Xalça onları düzzz Ərəbistana apardı. Orada bir qız ağlayırdı. Qardaşını itirmişdi. Elisa ağacda bir uşaq gördü. Deyəsən uşaq ağlayan qızın qardaşə idi. Onlar uşağı xalçanın köməkliyi ilə ağacdan endirdilər. Bacısı çox sevindi və uşaqlara təşəkkür etdi. Sonra xalça onları Türkiyəyə apardı. Orada "Uşaq bayramı" idi. Hər yerdə bayraqlar, rəqslər, şənliklər vardı. Dostlar orada xeyli əyləndilər,fərqli millətdən olan uşaqlarla tanış oldular. Uşaqlar çox ac olmuşdular. Onlar qərara gəldilər ki, çantalarındakı oyuncaqları orada satsınlar. İstədikləri yeməklərin dadına baxsınlar. Uşaqlar elədə etdilər. Türk yeməklər onların lap xoşuna gəlmişdi.





**Muzeyə səyahət et**



Sonra xalça onları Qaxa – Elisa'nın vətəninə gətirdi. Ulu dağda xizək festivalı var idi. Uşaqlar əllərində öz vətənlərinin bayraqları ilə şənlik edirdilər. Elisa Azərbaycan mahnısını oxudu, Mehriban rəsm çəkdi, Yusif isə şeir dedi.

Sonda xalça uşaqları yenidən Barışkəndə qaytardı. Onlar çox sevincli idilər. Çünki hər xalqın öz gözəl mədəniyyəti vardı.
Nağıl burada bitdi, xalça evinə getdi...

Göydən 3 alma düşdü biri nağıl danışanın, biri nağıla qulaq asanın, biri nağıl yazanın....

**Rəngli kağızlardan xalça düzəlt**

Tapşırıqlar

Hekayəni oxut

# Etibarlı dostlar

*Etibarlı*

Bir var imiş, bir yox imiş, böyük bir kənddə üç ağıllı dost yaşarmış. Dostlar hərdən meşəyə gəzməyə gedərlərmiş. Dostların birinin adı Asif, biri Zərifə, digəri isə Nazlı imiş.

Dostlar bir-birinə güvənər, heç vaxt yalan danışmazlarmış. Onlar yenidən meşəyə getmək üçün babadan icazə alırlar.
Bu gün dostlar meşədən göbələk yığmaq istəyirdilər. Uşaqlar biraz meşədə gəzdikdən sonra Asif dedi:
— Gəlin, ən böyük ağacın altında biraz oturaq. Böyük ağacların altı sərin olur.
Uşaqlar biraz istirahət etdikdən sonra

Zərifə sevinirək dedi:
— Hərəmiz bir tərəfə gedək göbələk yığıb gətirək!Onlar qərara gəldilər ki,göbələkləri yığdıqdan sonra bu ağacın altında görüşsünlər.

Zərifə sağa, Nazlı sola, Asif isə qarşıya tərəf yollandılar. Asif ağacların arasından civilti səsi eşitdi. O, səsə tərəf baxanda gördü ki,qaratoyuğun balası yuvadan düşüb. Asif tez balanı götürüb yuvaya qoyur. Asif biraz göbələk yığdıqdan sonra, səbətini götürüb, ağacın altına geri dönür.

Birdən göydə buludlar toplanır və yağış yağmağa başlayır.







**Mağazan olsa əşyaları satmaq üçün nə edərdin?**

Zərifə cəld ağacın altına geri dönür,lakin orada Nazlını görmədiyi üçün narahat olur və deyir:
— Bəlkə Nazlı  gəlməz? Bəlkə o, yolu azıb?
— Amma o, söz verib gələcək! Biz onu burda gözləyək! Asiflə Zərifə Nazlını elə hey səsləyirdilər. Nazlıı!, Nazlıı! Zərifə Nazlının meşədə itəcəyindən qorxub ağladı.

Nazlı birdən ağacların arxasından çıxdı.Sən demə Nazlı yolu itiribmiş.Uşaqlar onu görcək çox sevinirlər.

Nazlı dostlarını qucaqlayıb deyir:
- Biz birlikdə gəlmişik,birlikdə gedəcəyik!

Dostlar ağacın altında oturub, birlikdə giləmeyvə yeyir, şənlənirdilər. Yağış dayanmışdı, gün çıxıb, göydə göy qurşağı görünmüşdü. Uşaqlar babalarına söz verdiyi vaxtda evə dönmüşdülər. Dostlar yığdığı göbələkləri babaları ilə birlikdə, kənd meydanındakı mağazalara verər, əvəzində dondurma alar yeyərdilər.

Əzizlərim, göydən üç alma düşər, biri Nazlının, biri Asifin, biri isə Zərifənin idi. Lakin, dostlarda almaları dilimləyib, nağılı dinləyənlərlə paylaşardılar.

Tapşırıqlar

Hekayəni oxut

# Motorlu Gəmi

*Məntiqi təfəkkürlü*

Günəş dağların arxasından sarı işığını kəndə yayırdı. Quşlar civildəyir, külək emalatxananın damındakı çarxı fırladırdı. Bu balaca emalatxanadan  həmişə maraqlı səslər eşidilirdi:
“tık-tık”, “vızz-vızz”, “cik-cik”...

Bura Zəka adında ağıllı bir oğlanın emalatxanası idi. Zəka düşünməyi və yeni əşyalar düzəltməyi çox sevərmiş. Burada taxtalar, düymələr, təkərlər, qutular olurdu. Zəka köhnə əşyalardan yenə oyuncaq düzəldərdi.

Bir gün Zəka motorlu oyuncaq gəmi düzəldirdi. Gəminin içində kiçik motor var idi. Bu motoru öz əli ilə hazırlamışdı.
Səhər Zəka emalatxanaya girəndə gördü ki, motor yoxdu..

Dostları Həsən və Xəzərdə motoru axtardılar, amma tapa bilmədilər.
Xəzər dedi :
—Uşaqlar baxın! Burada balaca ayaq izləri var!

Həsən dedi:
— Qardaşım Səid dünən burada oynayırdı. Bəlkə motoru o götürüb?

Zəka Səidgilin evinə getdi. Səid motorla oynayırdı. Səid onu görən kimi utanaraq dedi:







**Gəmin olsaydı onunla hansı veşləri daşıyardın?**

— Mən elə bildim köhnə oyuncaqdı. Maşınıma taxdım, işləməyincə gizlətdim...

Zəka gülümsədi:
— Bu mənim hazırladığım motor idi. Götürmək istəyəndə icazə almaq lazımdır.

Səid üzr istədi. Motor bir az sınmışdı. Amma uşaqlar birlikdə onu düzəltdilər. Gəmi yenidən işləməyə başladı! Suya qoydular, vızzz! – gəmi hərəkət etdi.

Zəka və dostları gəminin şəklini çəkib öz internet səhifələrində paylaşdılar. Çünki Zəka və dostları bu gəmini satıb,əvəzində yeni əşyalar almaq istəyirdilər. Hər kəs bu gəmini bəyənmişdi. Dostlar öz gürdükləri işə görə çox xoşbəxt idilər.

Əziz uşaqlar mən əminəmki, bu dostlar gələcəkdə böyük gəmilər düzəldəcək və hər kəs onları tanıyacaq.

Tapşırıqlar

Hekayəni oxut

# Metroda hadisə

*Məsuliyyətli*

Bir gün Əli, Xədicə və Murad valideynləri ilə birlikdə şəhərin mərkəzindəki muzeyə getmək üçün metroya mindilər. Uşaqlar bilirdilərki, metroda məsuliyyətli davranmalıdırlar. Qatarı gözləyərkən sarı xətti keçməməli, eskalatordan düşərkən və çıxarkən diqqətli olmalı, qatara minərkən cəld hərəkət etməlidirlər.

Dostlar valideynlərinə söz verdilər ki, metroda özlərini sakit və diqqətli aparacaqlar.

Uşaqlar metroda yerlərinə oturub sakitcə gözlədilər. Xədicə yaşlı bir nənənin ayaq üstə qaldığını gördü. O dərhal ayağa qalxıb dedi:
— Nənəcan, buyurun, mənim yerimdə əyləşin.

Nənə ona təşəkkürünü bildirdi. Əli isə kiçik bacısını qucağında saxlayır, onun düşməməsi üçün əlindən möhkəm yapışmışdı. Murad metrodakı anonslara diqqətlə qulaq asırdı, düşəcəyi stansiyanı keçəcəklərindən çox narahat idi.

O, dostlarına dedi.
—“Biz düşəcəyimiz stansiyaya çatanda xəbər verəcəm. Mənim yanımdan ayrılmayın.



**Metro qatarının şəklini çəkin**




**Hansı metro stansiyamız bir peşə sahiblərinin adını daşıyır?**

Qatar birdən dayandı. İşıqlar bir neçə saniyəlik sönüb, yandı. Sən demə, texniki bir problem olmuşdu və qatar bir az gecikəcəkdi. Uşaqlar azca narahat oldular, amma qorxmadılar.

Əli dərhal bacısını qucaqladı, Xədicə Muradın əlindən tutdu və dedi:

—Narahat olmağa dəyməz, yəqinki teliklə qatar düzələr.

Metroda olan bir uşaq ağlayırdı. Murad ona yaxınlaşıb soruşdu:

-Qorxursan? Gəl, birlikdə “Say oyunu” oynayaq.

Uşaq sakitləşdi və gülümsədi. Xədicə isə çantasından rəngli yapışqan stikerləri çıxarıb uşaqlara payladı ki, vaxt xoş keçsin.

Əli dedi:

-Bu oyunda kim qalib gələrsə,bu yapışqan stikerlərin hamısı onun olsun. Uşaqlar razılaşdılar. Bu oyunun qalibi Murad oldu. Xədicə bütün stikerləri ona verdi.

Qısa müddət sonra problem həll olundu və metro hərəkətə başladı. Qatar stansiyaya  çatanda insanlar uşaqlara baxıb alqışladılar. Bir sərnişin dedi:

—Belə məsuliyyətli və qayğıkeş uşaqlar metroda ilk dəfədir görürəm.

Valideynlər qürurla gülümsəyərək övladlarının əlindən tutub metrodan endilər.

Tapşırıqlar

Hekayəni oxut

# Çəhrayı otaq

*Estetik mədəniyyətə malik*

Bir var idi, bir yox idi. Bütün gözəllikləri sevən Nərgiz adlı bir qız vardı. Nərgiz rəngləri, çiçəkləri, səliqəli geyinməyi çox sevərdi. Onun saçları həmişə səliqəli, paltarı isə tərtəmiz və rəngarəng idi. Nərgiz  pişiyi” Bal”ı hər gün bəzəyir quyruğuna çəhrayı lent bağlayırdı.

Hər səhər oyandıqda pəncərəyə baxıb deyərdi:
— Sarı, günəş salam! Günəşdə sanki ona baxıb gülümsəyirdi.

Nərgiz  hər şeyin təmiz və gözəl olmasını sevərdi. O, otağındakı oyuncaqları rənglərinə görə düzərdi:
— Qırmızı maşınlar bir yerdə, sarı toplar bir yerdə!

Bir gün ana Nərgizə dedi:
— Qızım, bu gün sənin rəfiqələrin Əsrayla, Ruqiyyə qonaq gələcək.

Nərgiz çox sevindi. O, tez stolu səliqəyə saldı. Elə bu arada Nərgizin pişiyi Bal oyuncaq şkafına atıldı. Bütün oyuncaqlar yerə dağıldı. Nərgiz otağın halını görüb çox məyus halda dedi:
-Axxx,axxx  Bal indi mən nə edim?Anası bunu görüb Nərgizə otağı səliqəyə salmağa kömək etdi. Otaq yenidən əvvəlki kimi səliqəli oldu.





## Düzəltdiyin bəzək əşyasını təqdim edib satın

Əsra ilə Ruqiyyə gələndə heyran oldular və dedilər:
— Vay! Sənin otağın çox gözəldir!

Oyuncaqların düzülüşü bizə nağıl kimi gəldi!
Nərgiz gülümsədi:
— Uşaqlar gəlin birlikdə rəngli muncuqlardan qolbaqlar düzək. Həmin qolbaqları Ayşə xalaya verək, mağazasında satsın. Ondan əldə etdiyimiz gəlirdən,küçədə yaşayan heyvanlara yem alaq.

Qızlar birlikdə rəngli muncuqlardan qolbaq düzəltdilər, gül şəkilli rəngləmə etdilər.

Ana qızların düzdüyü qolbaqlara baxıb dedi:
— Uşaqlar, siz qolbaqları çox gözəl düzəltmisiniz! Bunları hər kəs bəyənib alacaq.

Nərgiz gülümsədi:
—Gözəl olan hər şeyi sevirəm!
O, gündən sonra Nərgizin dostları, Əsra və Ruqiyyə otaqlarını səliqəyə salmağa başladı.

Əziz dostlarım gözəl mühit, gülən ürək deməkdir. Sizdə otağınızı səliqəli saxlayın.

Tapşırıqlar

Hekayəni oxut

# Pul qutusu

*Mərhəmətli*

Balaca Mələk çox mehriban və şəfqətli bir qız idi. O, oyuncaqlarını dostları ilə bölüşər, ağlayanları qucaqlayardı. Bağçada hər kəs Mələyi sevərdi. Orada bir uşaq vardı adı Kənan idi. Kənan sakit və utancaq idi. O, həmişə kənarda tək oturardı. Onun ayaqqabıları çox köhnə idi. Nərgiz hər dəfə onun ayaqqıbalarını görəndə ürəyi çox pis olardı.

Bir gün Mələk anasına dedi:
— Ana, bağçadakı Kənanın ayaqqabıları cırılıb. O, utandığı üçün heç kimlə danışmır. Mən ona kömək etmək istəyirəm.

Anası gülümsədi:
— Çox gözəl niyyətdir. Amma bunu öz bacarıqlarınla etsən, daha dəyərli olar. Mələk düşündü və belə bir fikir ağlına gəldi.

O, dostları Mədinə və Günellə birlikdə oynatmadığı oyuncaqlarını satmaq qərarına gəldilər.

Bazar günü uşaqlar valideynləri ilə birgə evlərinin yanındakı parkda balaca masa qurdular. Həmin oyuncaqları satmaq üçün masaya düzdülər.

Parka gələn uşaqlar sevinc içində oyuncaq alırdı. Mələk isə satılan hər oyuncağın pulunu bir qutuda yığırdı.



**Kağızdan pul qutusu düzəldin**



**Oyuncaqlarını satmaqla başqa uşaqlara necə kömək edə bilərsən?**

Həmin gün axşam Mələk, Günül və Mədinə evə çox xoşbəxt qayıtdılar.

Mələk səhər yuxudan sevinclə oyandı.Lakin, pul qutusunu axşam hara qoyduğunu yadına sala bilmədi. Qızcığac çox həyəcanlanmışdı. O, istəyirdi ki,tezliklə Kənanı sevindirsin. Anası qızının həyəcanını görüb soruşdu nolub sənə niyə kədərlisən,? Mələk olanları danışdı. Anası pul qutusunu tapmaqda Mələyə  köməklik etdi. Onlar axtarıb qutunu tapdılar.

Dostlar valideynləriylə birlikdə ayaqqabı almağa getdilər.

Ertəsi gün, Mələk və dostları Kənana yaxınlaşıb ona ayaqqabıları verdi. Kənanın gözləri yaşardı. O çox utanırdı, amma Mələk yumşaq səslə dedi:
— Biz sənin dostunuq. Mən istədim ki, sən də rahat gəzib, oynayasan.

Kənan gülümsədi və ilk dəfə Mədinəyə sarıldı. Kənanda onların dostu idi. Dostlar çox xöşbəxt idi. Axı, onlar bir uşağın ürəyini sevindirmişdilər.

Gözəl dostlarım sizdə hər zaman mərhəmətli,yardımsevər olun.

Tapşırıqlar

Hekayəni oxut

# Araşdırma evi

*Tədqiqatçı*

Bir var imiş, bir yox imiş, dənizlərin o üzündə, dağların bu üzündə, Məlumat kəndi adlanan bir yerdə Üç yaxın dost yaşayırmış: Zəkacan, Maraqcan və Bilgəcan.

Bu üç dost hər şeylə maraqlanar, ətrafındakı insanlara suallar verərdilər. Onlar ətraf aləmi müşahidə edər, şəkilli kitablara baxardılar. Uşaqlar bir qərar verdilər ki,daha çoxlu araşdırma etmək üçün meşəyə getsinlər. Heyvanların, quşların, bitgilərin üzərində təcrübə aparsınlar.Dostlar bel çantalarına biraz yemək və lazım olan əşyalar qoyub babaları ilə yola düzəldilər. Aslantək qaçıb, balıqtək üzüb, quş tək süzüb meşəyə çatdılar. Orada gördüklərinə inanmadılar. Meşədə gəzərkən bütün çiçəklərin solduğunu gördülər. Uşaqlar bitgiləri belə görüb çox kədərlənirlər.

Bilgəcan biraz düşünür və deyir:
— Gəlin meşənin ətrafında yaşayan insanlarla danışaq, məlumat toplayaq.

Dostlar əvvəlcə kəndin ağsaqqalı Musa babadan soruşurlar:
— Musa baba,  çiçəklər  niyə solub?

Musa baba deyir:
—Yaxınlıqda zavod var o gecə-gündüz işləyir, arılar, güllər onun tüstüsündən zəhərlənirlər.



**Yarpaqları yığın, qurudun və herbari düzəldin**



## Təbiəti qorumaqla üçün reklam tablosu düzəldin

Maraqcan dərhal çantasından tədqiqat kitabını çıxarır və vərəqləməyə başlayır. Kitabı vərəqləyərkən belə bir şəkil tapır: "Əgər arılar məhv olub, çiçəklər solub."

Bilgəcan dostları ilə birlikdə ətrafı müşahidə etməyə  başlayır. Onlar kəndin ətrafında bir dənə də arı görmürlər.
— Deməli güllərin solmasının səbəbi arıların olmamasıdır. — deyə Zəkacan  fikirləşir. Arıların olmamasıda yaxınlıqdakı zavodun tüstüsündəndir.

Musa baba uşaqların məyusluğunu görür və kəndin camaatını yanına çağırır. Bütün kəndin  razılığı ilə, fabrikə xəbərdarlıq edilir. Uşaqların səyi nəticəsində, fabriki  yalnız günün müxtəlif saatlarında işləməyə razı edirlər.

Bir neçə gün sonra arılar geri qayıdır, çiçəklər yenidən açır, meşə əvvəlki kimi rəngarəng və canlı olur.

O gündən sonra kənddə "Araşdırma Evi" qurulur və bütün uşaqlar ora gəlib dostlara suallar verir, müşahidələr aparır və bilik toplayırlar. Dostlar gördüklərini balaca bir alboma çəkirlər. Valideynləri bu albomu şəkilli kitab kimi çap etdirmişdilər. Dostların şəkilli kitabı artıq bütün kitabxanalarda satılırdı.

Musa baba dostlara gülümsəyərək deyir:
— Sizin kimi tədqiqatçı uşaqlar bu kəndi xilas etdi!

Tapşırıqlar